# Meyxoş Abdullah - 60



Hörmətli Meyxoş müəllim!

Sizi - istedadlı yazıçını 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz dövri mətbuatda 1980-ci illərdən çıxış edirsiniz. "Doktor Qəzənfər", "Didərgin ruhlar", "Alagöz", "Şeytan gülüşü", "Anakonda ovu", "Əsir qadın", "Qapısı gecə döyülən qadın" və "Saçlarından asılan qız" kitablarının müəllifisiniz.

"Əsir qadın" kitabı rus dilində ("Пленница") nəşr olunmuşdur. Eyni zamanda əsər Qusar Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

"Alagöz" əsəriniz Azərbaycan Yazıçılar Birliyi Bədii Ədəbiyyatı Təbliğ Bürosunun milli-mənəvi yaddaşa qayıdışı təbliğ edən və Qarabağ mövzusunda yazılan ən yaxşı bədii əsərlər üçün təsis etdiyi "Yaddaş" mükafatına layiq görülmüşdür (2002). "Alagöz" əsəri əsasında yazılmış eyniadlı ssenari Berlində keçirilən kino festivalında diploma layiq görülmüşdür. Mədəniyyət Nazirliyinin 2021-ci ilin mart ayında keçirdiyi ssenari müsabiqəsində "Alagöz" ssenarisi 48 ssenari arasında birinci yerə layiq görülmüşdür. Əsərləriniz türk, rus, fars, türkmən və qırğız dillərinə tərcümə olunaraq, geniş oxucu kütləsinə təqdim olunmuşdur. Aparıcı mətbuatda müntəzəm olaraq çap olunursunuz.

Hörmətli Meyxoş müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 29 yanvar.- 2022- ci il.- S. 28.**